

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır


**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 96 (23.738)

28 may 2021-ci il, cümə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Türkiyə Respublikasının Milli Təhsil naziri Ziya Səlçuku qəbul edib. Prezident İlham Əliyev bildirib ki, Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr ən yüksək səviyyədədir. Təhsil sahəsi də əməkdaşlığın önəmli bir hissəsidir. Azərbaycanda İkinci Qarabağ müharibəsindən sonrakı bərpa və yenidənqurma dövründə Prezident Rəcəb Tayyib Ərdoğanın səfər proqramında Şuşa şəhərində ermənilər tərəfindən dağıdılmış məktəbin də təməlqoyma mərasimi öz əksini tapıb.

Dövlətimizin başçısı diqqətə çatdırıb ki, təhsil, təhsilin keyfiyyətinin qaldırılması, eyni zamanda Türkiyə və Azərbaycan gənclərinin bir-birinə daha sıx bağlı olması ilə əlaqədar əlavə təkliflər də müzakirə edilməli, müxtəlif tədbirlər – gənclər forumları, birgə təhsil proqramları və digər tədbirlər keçirilməlidir.

Türkiyənin Milli Təhsil naziri Ziya Səlçuk təhsil proqramları, təhsilin inkişafı, gələcəklə bağlı görüləcək işlərlə əlaqədar heç bir problem olmayacağını, bu çərçivədə peşə fəaliyyəti ilə bağlı imzalanan protokolun da həyata keçirildiyini bildirib.



## Naxçıvanda 28 May – Respublika Günü qeyd olunub



Mayın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Respublika Günü qeyd edilmiş, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası təltiflərinin, eləcə də Prezident mükafatlarının təqdimatı keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək bu il xalqımızın 28 May – Respublika Gününü dövlətçilik tariximizdə əbədi qalacaq böyük Qələbə ilə qeyd etdiyini bildirmiş, Qələbənin qazanılmasında şəhid olmuş qəhrəmanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunmuşdur.

Ali Məclisin Sədri demişdir: Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın dövlətçilik və ictimai-siyasi fikir tarixində mühüm yer tutur. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***“Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdır. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi”.*** Azərbaycan Xalq Cümhuriyyəti həm də bütün Şərqdə, o cümlədən türk-islam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi. 1918-1920-ci illərdə Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı, milli ordusu təşkil edilmiş, müstəqil dövlətçilik atributları yaradılmış, Azərbaycan dili dövlət dili elan edilmişdir. Cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti sübut etdi ki, Azərbaycan xalqı müstəqil yaşamağa, öz dövlətçilik ənənələrini bərpa etməyə qadirdir.

“Azərbaycan Xalq Cümhuriyyəti dövründən bəhs edərkən onun Naxçıvanla əlaqələrinə də xüsusi diqqət yetirmək lazımdır”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, həmin dövrdə Naxçıvan daxili və xarici maraqların toqquşduğu əraziyə çevrilmişdi. Fürsətdən istifadə edən ermənilərin işğal planları isə vəziyyəti daha da çətinləşdirmişdi. Belə bir vəziyyətdə – 1918-ci ilin noyabrında Naxçıvanda yaradılmış Araz-Türk Cümhuriyyəti Naxçıvanın Ermənistan daşnak hökuməti tərəfindən ilhaq edilməsinin qarşısını almış və tarixi Azərbaycan torpaqlarını qoruyub saxlamışdır. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Naxçıvanla bağlı mövqeyi və yerli sakinlərin siyasi iradəsi isə sonrakı dövrdə Azərbaycanın tərkibində Naxçıvanın muxtariyyət statusu qazanmasında mühüm rol oynamışdır.



Ali Məclisin Sədri demişdir: XX əsrin əvvəllərində milli hökumətimizin keçdiyi şərəfli yol əsrin sonlarında müstəqillik üçün siyasi və tarixi əsas yaratmışdır. Bu tarixi varislik ənənələrinin yaşadıldığı və müstəqilliyin əsasının qoyulduğu ilk yer isə Naxçıvan Muxtar Respublikası olmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevin 1990-1993-cü illərdə muxtar respublikada yaşayıb fəaliyyət göstərməsi dövlətçiliyimizi və müstəqilliyimizi məhv olmaq təhlükəsindən xilas etmiş, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı ilk dəfə Naxçıvanda qaldırılmışdır. Ölkə Prezidenti cənab İlham Əliyev həmin tarixi dövrü belə dəyərləndirmişdir: ***“1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirildi. Ondan sonra ilk dəfə olaraq rəsmi qaydada bu bayrağı ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında rəsmi dövlət bayrağı kimi qaldırmışdır və təsis etmişdir. Əslində, müstəqilliyə gedən yol bu tarixi andan başlamışdır”.*** Həqiqətən də, tarix göstərdi ki, ümummilli liderimizin 1990-1993-cü illərdə Naxçıvanda dövlət müstəqilliyimizin bərpası ilə bağlı qəbul etdiyi tarixi qərarlar Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müasir Azərbaycanın dövlətçilik yoludur. Ölkə Prezidenti cənab İlham Əliyev bu yolu uğurla davam etdirərək Azərbaycanı regionun lider dövlətinə, sabitliyin və inkişafın təminatçısına çevirib. Müstəqilliyimiz möhkəmləndirilib, sosial-iqtisadi inkişaf təmin edilib, güclü ordu yaradılıb. 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunması bunu bir daha təsdiq etdi.



Ali Məclisin Sədri demişdir: 28 May – Respublika Günü ərəfəsində Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası təltiflərinin, Prezident mükafatlarının təqdim olunması da xüsusi əhəmiyyət kəsb edir. Çünki müstəqil Azərbaycan ulu öndərin yolu ilə gedərək daha da inkişaf edir, güclənir. Ölkəmizin inkişafında pay sahibi olmaq, çalışdığı sahədə nümunə göstərmək isə hər bir vətəndaşın əsas vəzifəsidir. Təltif olunanlar da öz sahələrində fərqlənən, nümunə göstərən şəxslərdir.

Ali Məclisin Sədri tədbir iştirakçılarını, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisindəki ordu, birləşmə və hissələrinin şəxsi heyətlərini və onların ailələrini, şəhid ailələrini və müharibə veteranlarını, muxtar respublika əhalisini qarşıdan gələn 28 May – Respublika Günü, təltif olunanları isə həm də ölkəmizin yüksək təltif və mükafatlarına layiq görülmələri münasibətilə təbrik etmişdir.

Sonra Ali Məclisin Sədri orden, medal və fəxri adların döş nişanlarını və vəsiqələrini, eləcə də Azərbaycan Respublikası Prezidentinin mükafatlarını təqdim etmişdir.

“Tərəqqi” medalı ilə təltif olunan Mirvasif Seyidov minnətdarlıq edərək demişdir ki, muxtar respublikada bütün sahələrdə olduğu kimi, baytarlıq sahəsinə də diqqət göstərilir. Çünki ərzaq təhlükəsizliyi bilavasitə bu sahə ilə də bağlıdır. Ucqar kəndlərdəki baytarlıq məntəqələrində müasir iş şəraitinin yaradılması, yeni avadanlıqlarla təminat bu sahəyə göstərilən diqqətin təzahürüdür.

“Hərbi xidmətlərə görə” medalı ilə təltif olunan Vüqar Rəhimli demişdir ki, Vətən müharibəsində qələbənin qazanılması ölkəmizdəki dövlət-xalq-ordu birliyinin nəticəsidir. Bu birliyin daha bir ifadəsi də səfərbərlik tədbirlərində insanların böyük ruh yüksəkliyi ilə iştirakı olmuşdur. Səfərbərlik xidməti əməkdaşlarının əməyinə verilən yüksək qiymət məsuliyyətimizi daha da artırır.

Azərbaycan Respublikasının “Əməkdar kənd təsərrüfatı işçisi” fəxri adı ilə təltif olunan Hümbət Rzayev demişdir: “Kənd təsərrüfatı muxtar respublikanın iqtisadiyyatında mühüm rola malikdir. Əhalinin yerli və keyfiyyətli məhsullarla təminatı muxtar respublikada prioritet olduğu üçün mən də bu sahəyə töhfə verməyə çalışıram. Ötən il ərazi bütövlüyümüzün bərpa olunmasında mənim də oğlum iştirak etmiş və qəhrəmanlıqla şəhidlik zirvəsinə ucalmışdır. Şəhidlərimizə göstərilən diqqətə görə dövlətimizə minnətdarlıq edirəm”.

Naxçıvan Muxtar Respublikasının “Əməkdar müəllimi” fəxri adı ilə təltif olunan Məhsəti Əsgərova çıxış edərək demişdir ki, ölkəmizdə və muxtar respublikada aparılan quruculuq işləri təhsil sahəsindən də yan keçməmişdir. Naxçıvan Dövlət Universitetinin də son illər maddi-texniki bazası təkmilləşdirilir, yeni fakültə və ixtisaslar açılır. Universitetin Xarici dillər fakültəsinin yeni tədris korpusunun istifadəyə verilməsi muxtar respublikada xarici dillərin tədrisi və öyrənilməsinin günün tələbləri səviyyəsində qurulmasına imkan verir. Məsuliyyətimi dərk edir və göstərilən etimad qarşılığında daha səylə çalışacağıma söz verirəm.

Təltif olunanlardan Oqtay Həsənov və Elçin Qurbanov, Mübariz Allahverdiyev, Kənan Seyidov, Hümbət Babayev, Elnur Məmmədov, Xumar Həsənova, Fəxrəntac Bağırova və Məhsəti Quliyeva da minnətdarlıq etmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## 1992-ci il 28 mayda açılan “Ümid” körpüsü ölkələrarası əlaqələrin inkişafında mühüm rol oynamışdır

*Bir neçə aydır ki, xalqımız 30 ilə yaxın bir müddətdə həsrətində olduğu torpaqlara qovuşdu – 44 günlük azadlıq mücadiləmiz böyük zəfərlə başa çatdı. Bu zəfər ədalətin qələbəsi, təntənəsidir. Aylardır ki, qələbəmizin sevincini yaşayırıq. O sevinc ötən dövrdə qeyd etdiyimiz əlamətdar və bayram günlərinə də yeni bir ovqat qatıb. Burada, xüsusilə qeyd etmək yerinə düşər ki, xalqımızın tarixi taleyinə qızıl hərflərlə yazılmış əlamətdar hadisələr çoxdur. Böyüklüyündən, kiçikliyindən asılı olmayaraq, hər bir əlamətdar hadisə xalqın tarixidir. Bu sırada 1992-ci il may ayının 28-i isə təqvimimizdə öndə dayanan tarixlərdən biridir. Həmin gün Azərbaycan-Türkiyə sərhədində, Araz çayı üzərində “Ümid” körpüsü açıldı. Həmin tarix iki qardaş xalqı bir-birinə qovuşdurmaq, yurddan-yurda, könüldən-könülə körpü salmaq və ən nəhayət, ağır blokada vəziyyətində olan Naxçıvanın yaşaması və inkişafı baxımından özündə bir çox mətləbləri birləşdirir. Bu körpü Türkiyə ilə Azərbaycanı birləşdirməklə Türk dünyasının coğrafi bütünlüyünü də təmin edir. Bu baxımdan çətin ki, dünyanın başqa bir yerində mənəvi cəhətdən bu qədər dəyəri olan, istifadəyə verilməsi bayrama çevrilən, insanların içindəki ümidi, həsrəti, könül bağlılığını ifadə edən ikinci bir körpü olsun.*



29 il bundan əvvələ ekskurs etsək, görəcəyik ki, o dövrdə Naxçıvan tamamilə təklənmişdi. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın əsas ərazisi ilə nəqliyyat-kommunikasiya əlaqələri kəsilmiş, iqtisadi böhran dərinləşmişdi. Azərbaycanın ozamankı iqtidarı ölkədaxili vəziyyətə nəzarət edə bilmirdi. Belə bir dövrdə ümummilli lider Heydər Əliyevin Naxçıvana gəlməsi, burada yaşayıb siyasi fəaliyyət göstərməsi muxtar respublikanı işğaldan, naxçıvanlıları ağır blokada şəraitində məhv olmaqdan qorudu.



Görkəmli dövlət xadimi Heydər Əliyev Naxçıvana qayıtdıqdan sonra Qars və Moskva müqavilələri yenidən siyasi müstəviyə çıxarılmış, böyük Atatürkün “Türk qapısı” adlandırdığı bu qədim yurd yerində ***“Bir millət, iki dövlət!”*** şüarı reallığa çevrilmişdi. 1991-ci il oktyabrın 29-da Türkiyə ilə Naxçıvan arasında müvəqqəti körpü açılmış, əsas körpünün inşası sürətləndirilmişdi. Bu məsələ dahi rəhbərin 1992-ci il mart ayının 22-dən 24-dək Türkiyəyə səfəri çərçivəsində Ankarada imzalanmış əməkdaşlıq protokolunda da öz əksini tapmışdı. Həmin il mayın 28-də iki ölkə arasında iqtisadi, mədəni, sosial, siyasi əlaqələrin inkişaf simvolu hesab olunan Sədərək-Dilucu körpüsü istifadəyə verilmişdir.

“Ümid” körpüsünün istifadəyə verilməsi ilə Naxçıvanda blokadanın ağır fəsadlarının tədricən aradan qaldırılmasına, əhalinin maddi-rifah halının yaxşılaşdırılmasına, muxtar respublikanın dünyaya tanıdılmasına, Qərbə inteqrasiyasına başlanılmışdır. Eyni zamanda bu, Türkiyənin şərq vilayətlərinin inkişafına təkan vermiş, nəqliyyat əlaqələrinin inkişafı və beynəlxalq daşımalar üçün yeni istiqamət müəyyənləşdirmişdir. Ümummilli liderimiz Heydər Əliyev körpünün açılması zərurətini belə xarakterizə etmişdir: ***“Belə bir körpü tikmək bizim bir azərbaycanlı kimi, şəxsən mənim on illərlə qəlbimdə olan arzu idi. Bu fikir mənim qəlbimdə on illərlə yaşayırdı. Mən özümü xoşbəxt hesab edirəm ki, gördüyüm bütün başqa işlərlə bərabər, o ümid, həsrət körpüsünün qısa müddətdə tikilməsinin, yaranmasının təşəbbüskarı oldum”.***

Bu gün Türkiyə-Azərbaycan, Naxçıvan əlaqələrinin müasir səviyyəsi, Türk dünyasının birlik və bütövlük ideyalarının gerçəkləşdirilməsi istiqamətində görülən işlər şərh edilərkən Sədərək-Dilucu körpüsünün əhəmiyyəti xüsusi vurğulanır. Çünki Sədərək-Dilucu körpüsü Azərbaycan-Türkiyə əlaqələrinin inkişafının başlanğıcı olmuşdur. Ötən 28 ildə qardaş ölkənin yaxın vilayətləri ilə muxtar respublika arasında iqtisadi-ticarət və humanitar əlaqələrin inkişafı davamlı xarakter almışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 26-29 aprel tarixlərində Türkiyə Respublikasına rəsmi səfəri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasındakı münasibətlərin inkişafı baxımından xüsusi mərhələ olmuşdur. Bu gün Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin yaxın bölgələri arasında bütün sahələrdə mövcud olan qarşılıqlı əlaqələr dinamik şəkildə inkişaf edir.

Qədim diyarımız Naxçıvanın Türk dünyasının birlik və həmrəyliyində də xüsusi yeri olmuşdur. 2008-ci ildə Türkiyə Baş nazirinin Naxçıvana səfər etməsi, 2009-cu ildə isə Türkiyə Prezidentinin Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşündə iştirak etmək üçün Naxçıvana gəlməsi qardaş ölkənin Azərbaycanın bu qədim diyarına verdiyi önəmin əyani ifadəsidir. 2010-cu ilin oktyabr və 2018-ci ilin dekabr aylarında Azərbaycan-Türkiyə biznes forumlarının Naxçıvanda keçirilməsi isə iqtisadi əlaqələrin yeni müstəvidə sürətli inkişafı üçün əlverişli imkanlar açmışdır.

Ötən il fevral ayının 25-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğanın Azərbaycana səfəri və həmin gün Bakıda hər iki ölkə liderinin rəhbərliyi ilə keçirilən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası təkcə Azərbaycan və Türkiyə üçün deyil, ümumiyyətlə, regionun gələcək inkişafı baxımından əhəmiyyətli idi. İclasda Türkiyənin Qars şəhəri ilə Naxçıvan arasında dəmir yolu nəqliyyat xəttinin və İqdır-Naxçıvan qaz kəmərinin çəkilməsi barədə imzalanan sənədlər bir sıra mühüm iqtisadi və siyasi tərəfləri ilə yanaşı, Naxçıvanın geosiyasi əhəmiyyətini daha da artırmaq baxımından da böyük əhəmiyyət kəsb edir.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasındakı əlaqələrin bir çox istiqamətlər üzrə uğurla inkişaf etdirilməsi bu günün reallığıdır. Xüsusilə iqtisadi-ticarət, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə əlaqələrin inkişafı məmnunluq doğurur. Türkiyə hökumətinin qəbul etdiyi tənzimləmə qərarına görə Naxçıvan Muxtar Respublikasındakı istehsal müəssisələrinin Türkiyəyə məhsul ixracına güzəştlər tətbiq olunması və muxtar respublikaya sərbəst ticarət imkanı verilməsi isə ikitərəfli münasibətlərin uğurlu inkişafının nəticəsidir.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında ordu quruculuğu sahəsindəki əməkdaşlıq da ilbəil genişləndirilir. 2013-cü ildən etibarən keçirilən, artıq ənənə halını alan birgə döyüş təlimləri isə uğurlu hərbi əməkdaşlığın unikal nümunəsinə çevrilib. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən 2019-cu il iyun ayının 7-11-də Naxçıvanda keçirilən iki ölkənin silahlı qüvvələrinin “Sarsılmaz qardaşlıq – 2019” birgə döyüş atışlı taktiki təlimləri, 2020-ci il sentyabr ayının 5-də Naxçıvanda iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təliminin birinci mərhələsinin keçirilməsi bu ənənənin uğurlu mərhələləridir.

Bu da xüsusi vurğulanmalıdır ki, muxtar respublikanın sürətli sosial-iqtisadi inkişaf dinamikası, ixrac potensialı, eləcə də qarşılıqlı faydalı əməkdaşlıq imkanları türk iş adamlarının bölgəyə marağını artırır, Türkiyə ilə qarşılıqlı əlaqələr durmadan inkişaf edir. Artıq “Ümid” körpüsünün davamı olaraq Naxçıvanla Türkiyə arasında hava nəqliyyatının fəaliyyət göstərməsi və Bakı-Tbilisi-Qars-Naxçıvan dəmir yolu xəttinin inşası blokada vəziyyətində yaşayan Naxçıvanın qardaş ölkə ilə əlaqələrindəki tarixi rolunun bərpasına hesablanmış məqsədyönlü addımlardır.

Qardaş Türkiyə ilə Naxçıvan arasında digər sahələrdə olduğu kimi, gömrük işi sahəsində də qarşılıqlı anlaşma şəraitində möhkəm əlaqələr mövcuddur. Son illərdə qarşılıqlı münasibətlərin daha da dərinləşməsi, birgə əməkdaşlığın gücləndirilməsi istiqamətində ardıcıl iş aparılır, müxtəlif sahələrdə razılıqlar əldə olunur. Məhz bunun nəticəsidir ki, gömrük orqanlarımız 24 saat fəaliyyət göstərir. Hazırda hər iki tərəfdən gömrük infrastrukturunun modernləşdirilməsi istiqamətində görülən işlər qarşılıqlı münasibətlərə verilən əhəmiyyətin ifadəsidir.

“Ümid” körpüsünün istifadəyə verilməsi Türkiyə-Azərbaycan, Naxçıvan əlaqələrinin qurulması, inkişafı və dərinləşməsi istiqamətində taleyüklü addım olmuşdur. Bu körpü təkcə Türkiyə ilə Azərbaycanı yox, eyni zamanda Türk dünyasını birləşdirən körpü kimi mühüm əhəmiyyətə malikdir. Sədərək-Dilucu körpüsü vasitəsilə həyata keçirilən tədbirlərin böyük tarixi əhəmiyyətə malik olmasına diqqəti çəkən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Bizim bütün əlaqələrimiz qardaşlığımızın və dostluğumuzun əbədi nişanəsi, böyük Atatürkün və ümummilli lider Heydər Əliyevin izləri olan Sədərək-Dilucu körpüsü vasitəsilə həyata keçirilir. Fəaliyyət göstərdiyi dövrlərdə Sədərək-Dilucu körpüsü bizi bir-birimizə daha sıx birləşdirmiş, hər iki tərəfdən insanların həyatının yaxşılaşmasına xidmət göstərmişdir”.***

Körpü kəndləri, şəhərləri, ölkələrarası bölgələri, dövlətləri və insanları bir-birinə birləşdirən başlıca nəqliyyat infrastrukturlarından biridir. Dünyanın bugünkü durumunda bu məsələ daha böyük siyasi əhəmiyyət daşıyır. Yaxın tariximizdən bəllidir ki, işğalçı Ermənistanın son 30 il ərzində ölkəmizə qarşı törətdiyi mənəvi, hüquqi, iqtisadi terrorlardan biri də Naxçıvanı ərazi etibarilə Azərbaycandan ayrı salmaq idi. Prezident cənab İlham Əliyev may ayının 10-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Ordubad dəmiryol stansiyası ilə tanışlıq zamanı yeni nəqliyyat-kommunikasiya infrastrukturunun yaradılması məsələlərinə toxunaraq dedi: ***“Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı bizim qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək bizim növbəti tarixi nailiyyətimiz olacaq”.***

Bildiyimiz kimi, 10 noyabr tarixli Bəyanata əsasən həm də Cənubi Qafqazda nəqliyyat əlaqələrinin bərpasına başlanılıb. Zəngəzur dəhlizinin açılması ilə Avrasiyanın nəqliyyat şəbəkəsi daha da genişlənəcək, Naxçıvanı Azərbaycana, Azərbaycanı isə Türk dünyasına birləşdirəcək Zəngəzur dəhlizi Türkiyə üçün Mərkəzi Asiyaya qapı rolunu da oynayacaq. Həyata keçirilməkdə olan Qars-Naxçıvan dəmir yolu layihəsi də Naxçıvanla Türkiyəni birləşdirəcək. Bütün bunlar isə qardaş Türkiyə ilə gediş-gəlişimizin daha da intensivləşdirilməsinə stimul olacaq. Növbəti mərhələdə bu dəmir yolunun Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanın qərb bölgələri ilə birləşdirilməsi Naxçıvanın inkişafında daha mühüm rol oynayacaq. Bütün bunlar artıq dünyada humanist ideyaların, sülhsevər layihələrin təşəbbüskarı kimi tanınan və onların reallaşmasını prioritet hesab edən dövlətimizin, ona şərəf və ləyaqətlə, yüksək siyasi iradə ilə başçılıq edən cənab İlham Əliyevin həyata keçirdiyi siyasətdir. “Ümid”lə başlanan bu siyasət isə ölkəmizi, böyük inkişafla addımlayan doğma Naxçıvanımızı daha böyük ümidli sabahlara aparır.

**“Şərq qapısı”**

## Müasir Azərbaycan müsəlman Şərqinin ilk müstəqil dövlətinin varisidir

***Mayın 28-i tariximizin ən şanlı günlərindən biridir. Bu, Azərbaycan Xalq Cümhuriyyətinin öz müstəqilliyini bəyan etdiyi tarixdir. 23 ay mövcud olmasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti özünün dövlətçilik əsasları və demokratik islahatları ilə böyük bir coğrafiyanın siyasi həyatında mühüm rol oynamış, dövlətçilik tariximizin əsaslarını daha da zənginləşdirmişdir.***

Birinci Dünya müharibəsində çar Rusiyasının ağır vəziyyətə düşməsi, eyni zamanda imperiya mərkəzində baş vermiş inqilab imperiyanın müstəmləkələrində yaşayan xalqların azadlıq uğrunda mübarizəyə qalxması ilə nəticələnmişdi. 1918-ci ilin fevralında yaradılmış Zaqafqaziya seymi həmin il may ayının 25-də dağıldıqdan sonra mayın 27-də seymin 44 nəfərlik müsəlman fraksiyası Azərbaycanın istiqlaliyyətini elan etmək və ilk milli hökuməti yaratmaq üçün Tiflisdə toplaşmışdı. Fraksiya ölkəmizin idarə olunmasını öz üzərinə götürərək Azərbaycan Milli Şurasını yaratdı. Milli Şuranın mayın 28-də keçirilən tarixi iclasında qəbul edilən 6 maddədən ibarət İstiqlal Bəyannaməsi ilə Azərbaycanın dövlət müstəqilliyi elan olundu. Bəyannamədə Azərbaycanın tamhüquqlu müstəqil dövlət, onun idarə forması isə xalq cümhuriyyəti olaraq göstərilirdi. Elə həmin gündə Milli Şuranın tapşırığı, Fətəli xan Xoyskinin başçılığı ilə 9 nəfərdən ibarət cümhuriyyətin ilk hökumət kabineti təşkil edildi. 1918-ci il iyunun 4-də Batum müqaviləsi bağlandıqdan sonra Osmanlı dövləti Azərbaycan Xalq Cümhuriyyətini tanıyan ilk dövlət oldu. Lakin həmin dövrdə Bakı şəhəri Xalq Komissarları Sovetinin nəzarətində olduğu üçün 1918-ci il iyunun 16-da Azərbaycan Milli Şurası və müvəqqəti hökumət Tiflisdən Gəncəyə köçmüşdür. Bir gün sonra Gəncədə Milli Şura öz fəaliyyətini müvəqqəti olaraq dayandırmış və Müəssislər Məclisi çağırılanadək bütün hakimiyyəti Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış ikinci hökumətə həvalə etmişdir. Həmin vaxt milli hökumətin qarşısında duran ilk və ən böyük vəzifə Bakını işğalçılardan azad etmək idi. Bunun üçün isə milli orduya sahib olmaq lazım idi. Məhz milli hökumətin bəyan edildiyi gündən, təxminən, 1 ay sonra – iyunun 26-da müsəlman hərbi korpusunun ayrıca Azərbaycan Korpusuna çevrilməsi ilə ölkəmizdə ilk Milli Ordu yaradılmasının əsası qoyulmuşdur. Təxminən, iki ay yarımlıq bir müddətdən sonra 1918-ci il sentyabrın 15-də Azərbaycan Xalq Cümhuriyyətinin birləşmiş hərbi qüvvələrinin mübarizəsi sayəsində Bakı azad edilmiş, sentyabrın 17-də Azərbaycan hökuməti Bakıya köçmüşdür.

Azərbaycan Xalq Cümhuriyyəti çox çətin dövrdə fəaliyyət göstərmişdir. Parlamentli respublika idarəçiliyinin hüquqi norma və qaydalarına uyğun olaraq hökumət tərəfindən Müəssislər Məclisinin çağırılması üçün bir sıra tədbirlər həyata keçirilsə də, ölkədə yaranmış ağır ictimai-siyasi vəziyyət parlamentə seçkilər keçirməyi çətinləşdirirdi. 1918-ci il noyabrın 16-da toplanan Milli Şura mövcud fövqəladə şəraitdə Müəssislər Məclisinin çağırılmasının qeyri-mümkünlüyü ilə əlaqədar olaraq ali hakimiyyət orqanı kimi “Azərbaycan Parlamentinin yaradılması haqqında” Qanun layihəsini hazırlamış və həmin il noyabrın 19-da bu qanunu qəbul etmişdir.

Parlamentin təntənəli açılışı 1918-ci il dekabrın 7-də Hacı Zeynalabdin Tağıyevin Qızlar məktəbinin binasında baş tutmuşdur. Böyük çətinliklərlə Azərbaycan Parlamenti davamlı olaraq fəaliyyət göstərdiyi dövrdə müstəqil dövlət quruculuğu istiqamətində misilsiz işlər görmüşdür. Belə ki, Şərqdə ilk dəfə olaraq Azərbaycanda qadınlara seçmək və seçilmək hüququ verilmiş, parlamentin işində Azərbaycanın ziyalı və ictimai fəal

*Ardı 3-cü səhifədə*

qadınları iştirak etmişlər. Parlamentin sədri Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyətinin Paris Sülh Konfransında uğurlu diplomatik fəaliyyəti sayəsində 1920-ci il yanvarın 11-də Azərbaycan müstəqil dövlət kimi tanınmışdır. Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi dövr ərzində 20-dən çox dövlətlə diplomatik əlaqələr yaratmışdır.

Həmin dövrdə ən böyük problemlərdən biri də Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təmin etmək idi. O vaxt qədim Zəngəzur, Qarabağ və Naxçıvan torpaqları əsassız erməni iddiaları və təcavüzü ilə üz-üzə qalmışdı. Lakin Naxçıvan əhalisi bu diyarın Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılması üçün inadla mübarizə aparırdı və milli qüvvələrin səyi nəticəsində 1918-ci il noyabrın 18-də burada Araz-Türk Respublikası yaradılmışdır. Bu respublikanın ərazisi Naxçıvan, Şərur-Dərələyəz, Ordubad və Sürməli qəzalarını, Sərdarabad, Uluxanlı, Qəmərli, Vedibasar, Mehri və başqa bölgələri əhatə edirdi. Sahəsi 8,7 min kvadratkilometr, əhalisi isə 1 milyon nəfərə yaxın olan respublikanın paytaxtı Naxçıvan şəhəri idi. Araz-Türk Respublikası Naxçıvanın daşnak hücumlarından qorunmasında böyük rol oynadı. Eyni zamanda milli hökumət də Naxçıvanı qorumaq üçün imkan daxilində köməklik göstərir, siyasi dəstək verir, hərbi, iqtisadi və mədəni cəhətdən yardımlar edirdi. Naxçıvan məsələsi bir neçə dəfə Azərbaycan Parlamentində müzakirə edilmiş, erməni təcavüzünün qarşısını almaq üçün əməli tədbirlər görülmüş, Naxçıvanı Ermənistanın müvəqqəti idarəçiliyinə vermək istəyən ingilis və amerikalılarla danışıqlar aparılmış, kəskin etiraz bildirilmişdi. Azərbaycan hökuməti Naxçıvan əhalisinin iradəsini ifadə edərək bildirmişdir ki, Naxçıvan Azərbaycanın ayrılmaz hissəsidir və milli hakimiyyət orqanları tərəfindən idarə olunacaqdır. Azərbaycan Xalq Cümhuriyyətinin Baş nazirləri olmuş Fətəli xan Xoyski və Nəsib bəy Yusifbəyli Naxçıvanın Azərbaycan ərazisi kimi qorunub saxlanılması üçün bütün vasitələrdən istifadə edir, qəhrəman naxçıvanlıların fəaliyyətini yüksək qiymətləndirirdilər.

Fətəli xan Xoyski parlamentin iclasında Naxçıvan bölgəsinin qəhrəman əhalisinin Vətənə qovuşmaq üçün öz həyatları və ailələri ilə risk edərək mübarizəyə qalxıb azadlığa çıxdıqlarını söyləmişdi. Nəsib bəy Yusifbəyli 1919-cu il dekabrın 22-də parlamentdəki çıxışında Naxçıvanın öz qüvvələri ilə istilaçıları devirərək, Azərbaycanla birləşməyə hazır olduğunu bildirərək demişdir: *"İgid naxçıvanlılar, şərurlular bu məsələni özləri həll ediblər; onlar həyatlarını, ailələrinin şərəfini və vardövlətlərini riskə qoyaraq doğma torpağa – Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar..."*

Beləliklə, ölkədə yaranmış mürəkkəb ictimai-siyasi və hərbi vəziyyət bəzi hallarda hökumətin öz məqsədlərinə tam çata bilməməsinə səbəb olsa da, naxçıvanlıların igidliyi və qəhrəmanlığı sayəsində bu qədim diyar Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılmışdır. Azərbaycan Xalq Cümhuriyyəti 23 ay fəaliyyət göstərsə də, xalqımızın öz müqəddəratını təyin etməyə qadir olduğunu bütün dünyaya nümayiş etdirmişdir. Bu qısa tarixi dövr Azərbaycan xalqının dövlətçilik



ənənələrinin bərpasına və milli mənlik şüurunun güclənməsinə böyük təsir göstərmişdir. Xalqımızın ümummilli lideri Heydər Əliyev ilk demokratik respublikanın fəaliyyətini yüksək qiymətləndirərək demişdir: ***"Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində həyata keçirdiyi ciddi tədbirlər sayəsində bütün dövlətçilik atributları – öz parlamenti, ordusu və pul vahidi olan müstəqil, suveren bir dövlətə çevrildi. O, bütün dövlətçilik göstəricilərinə və prinsiplərinə görə Şərqdə ilk demokratik respublika idi".***

Xalqımız üçün çox ağır və mürəkkəb dövr olan Cümhuriyyət dövrü, təəssüf ki, bir sıra milli planların həyata keçirilməsinə imkan vermədi. Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində süqut etsə də, müstəqillik ideyaları xalqımızın yaddaşından heç vaxt silinmədi. 1970-1980-ci illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf edərək özünün müstəqillik mübarizəsi üçün böyük potensial yaratdı və bunun məntiqi nəticəsi kimi ötən əsrin sonlarında Azərbaycan əsrin əvvəllərində itirdiyi müstəqilliyini yenidən bərpa etdi. Lakin bu dəfə də erməni təcavüzü ilə üzləşərək torpaqlarının işğalı və müstəqilliyinin itirilməsi təhlükəsi ilə rastlaşdı. Tarix də sübut edir ki, Azərbaycan xalqı müstəqil dövlətini yaratmaq istəyəndə daim erməni faktoru ilə üzləşmiş, ölkəmizin müstəqil dövlət olmasını istəməyənlər "erməni məsələsi"ndən yetərincə istifadə etmişlər. Ötən əsrin sonlarında yaranmış mürəkkəb ictimai-siyasi vəziyyətdə də eyni amillər yenidən baş qaldırdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə yaranmış gərgin vəziyyəti belə xarakterizə etmişdir: ***"Bütün tarixboyu xalqımızın müstəqillik arzusu ilə yanaşı, bu istəyə qarşı həyata keçirilmiş faciə və soyqırımı hadisələri də heyrətamiz şəkildə təkrar olunmuşdur. Xalqımızın bəxti onda gətirmişdir ki, ötən əsrin sonlarında nail olduğumuz ikinci dövlət müstəqilliyi üçün real təhlükə yarandığı bir dövrdə Heydər Əliyev kimi qüdrətli şəxsiyyət yenidən ali hakimiyyətə qayıtmış, Azərbaycan Xalq Cümhuriyyəti ilə başlanan milli dövlətçiliyi arzudan reallığa çevirmişdir".***

Məhz ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan mürəkkəb vəziyyətdə öz müstəqilliyini və suverenliyini qorumuş və möhkəmləndirmişdir. Dahi şəxsiyyətin sədrliyi ilə 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan MSSR Ali Sovetinin sessiyasında "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi qərarlar qəbul olunmuşdur. Həmin qərarlara əsasən müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qəbul olunmuş və bu bayraq ilk dəfə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclas salonunda qaldırılmışdır. Dahi şəxsiyyət Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizin dövlətçilik tarixində rolunu həmişə yüksək qiymətləndirmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin 75 illik yubileyi ilk dəfə Naxçıvanda qeyd olunmuşdur.

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələblərindən sonra ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etmiş, dövlət müstəqilliyimiz möhkəmləndirilmişdir. Ötən dövrdə Azərbaycan beynəlxalq hüququn subyekti kimi sübut etmişdir ki, o, Şərqdə və müsəlman aləmində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin ləyaqətli varisidir, onun davamçısıdır və ənənələrinə sadiqdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinin ölkəmizdə təntənəli şəkildə qeyd olunması, "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalının təsis edilməsi, dövlət müstəqilliyinin qorunub saxlanılmasında və inkişafında, ölkənin ictimai-siyasi həyatında xüsusi xidmətlərinə görə bir sıra şəxslərin bu medalla təltif olunması varislik ənənələrinin uğurla davam etdirilməsinin göstəricisidir.

Ölkə başçısının Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün möhkəmləndirilməsində atdığı ən böyük addım isə 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsi oldu. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin əmri ilə Azərbaycan Ordusu 44 gün ərzində düşmən üzərində qələbə qazanaraq onu kapitulyasiya aktını imzalamağa məcbur etdi. XXI əsrin ən möhtəşəm qələbəsi sayılan bu Qələbənin digər möhtəşəmliyi isə ölkəmizin əsas əraziləri ilə Naxçıvan arasındakı əlaqələrin qədim Azərbaycan torpağı olan Zəngəzur vasitəsilə bərpa olunmasıdır.

Vurğulamaq lazımdır ki, Naxçıvan Muxtar Respublikası müstəqilliyimizin bərpasında çox böyük rol oynamışdır. SSRİ-nin saxlanılması ilə bağlı referendum məhz ilk dəfə burada boykot edilmiş, ulu öndər Heydər Əliyev tərəfindən müasir Azərbaycanın dövlətçilik əsasları, ordu quruculuğunun təməli bu qədim diyarda qoyulmuşdur. Ötən əsrin sonlarından blokadaya alınan Naxçıvan bütün çətinliklərə baxmayaraq inkişaf etmiş, blokadada inkişafın yeni nümunəsini yaratmışdır. Tarix üçün çox qısa dövr olsa da, Naxçıvan Muxtar Respublikası ötən dövrdə əsrə bərabər bir yol keçmişdir.

Dayanıqlı iqtisadi inkişafın nəticəsidir ki, bu ilin yanvar-aprel aylarında muxtar respublikada 758 milyon 840 min 800 manatlıq ümumi daxili məhsul istehsal olunub. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,7 faiz çoxdur. Bəhs olunan dövrdə sənaye üzrə 344 milyon 811 min 500 manatlıq, kənd təsərrüfatı sahəsində isə 44 milyon 297 min 500 manat dəyərində məhsul istehsal edilib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 1,1 və 3,3 faiz çoxdur. Yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 384 növdə məhsul istehsal olunur ki, bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

Naxçıvan Muxtar Respublikası həm də mədəni yüksəliş dövrünü yaşayır. Elm, təhsil, səhiyyə, mədəniyyət və turizm kimi sahələrdə əldə olunan uğurlar Naxçıvanın simasını tamamilə dəyişib. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də Naxçıvan Muxtar Respublikasına hər səfərində görülən işləri yüksək qiymətləndirir, muxtar diyarın uğurlarından qürurla bəhs edir. Bu il mayın 10-da Naxçıvana növbəti səfərində də ölkə başçısının təəssüratları zəngin idi: ***"Təəssüratlarım çox müsbətdir. Hər zaman Naxçıvanda olanda, burada inkişafı görəndə çox sevinirəm. Bu mənim Naxçıvana 15-ci səfərimdir və hər səfər çərçivəsində bir çox obyektlərin açılışında iştirak edirəm…Naxçıvan sürətlə inkişaf edir. Bütün sahələr üzrə işlər müsbət istiqamətdə gedir… Sənaye potensialı inkişaf edir, artır. Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir. Ümumi daxili məhsul 10 dəfədən çox artıb. Kənd təsərrüfatı ilə bağlı görülmüş işlər nəticəsini verməkdədir".***

Ümummilli lider Heydər Əliyev həmişə Naxçıvanın inkişaf etməsini, abadlaşmasını istəyirdi: ***"Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım yerinə yetirilsin".***

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ümummilli liderimizin müəyyən etdiyi quruculuq xəttinin ölkəmizin hər bir yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasını da inkişaf və tərəqqi yoluna çıxardığını xüsusi qeyd edərək demişdir: ***"Biz ümummilli liderin yolu ilə gedərək doğma diyarımızı onun görmək istədiyi kimi qurmağa, inkişaf etdirməyə çalışmışıq".***

Bu gün güclü ordusu, güclü iqtisadiyyatı və ən əsası güclü lideri olan Azərbaycan öz müstəqilliyinin 103-cü ildönümünü böyük qürur və fəxarət hissi ilə qeyd edir. Azərbaycan Xalq Cümhuriyyətinin mənəvi varisi olan müasir Azərbaycanın bundan sonrakı gələcəyi isə daha parlaqdır. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: ***"Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir!"***

**"Şərq qapısı"**

## 28 May – Respublika Günü qeyd olunub



Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində 28 May – Respublika Gününə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Daimi Nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov vurğulayıb ki, milli istiqlal tariximizin şanlı səhifəsi olan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşasa da, müstəqillik tariximizdə böyük siyasi-iqtisadi, mədəni hadisələrin əsasını qoyub. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirib.

Bildirilib ki, ümummilli lider Heydər Əliyev hələ sovet dövründə – 1990-cı ildə ilk dəfə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Xalq Cümhuriyyətinin üçrəngli bayrağını muxtar respublikanın dövlət bayrağı kimi qəbul edib və bu, əbədi müstəqilliyə gedən yolun başlanğıcı olub. Xalqın çağırışı ilə 1993-cü ildə respublikaya rəhbərliyə qayıdan ulu öndər xalqımızı və dövlətimizi böyük təhlükələrdən xilas edib, Xalq Cümhuriyyəti dövründə təməli qoyulmuş müstəqil Azərbaycan ideyasını gerçəkləşdirib, müstəqilliyimizi dönməz və əbədi edib. Görkəmli dövlət xadimi fəaliyyətinin bütün dövrlərində Azərbaycan Xalq Cümhuriyyətinin xidmətlərinə, onun ənənələrinin yaşadılmasına daim yüksək önəm verib.

Diqqətə çatdırılıb ki, ümummilli lider Heydər Əliyevin apardığı uğurlu siyasətin nəticəsi olaraq Azərbaycan öz müstəqilliyini dünyaya sübut etmiş, istiqlaliyyətimizin daimi, əbədi olmasının əsasını yaratmışdır. Bu gün Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müstəqil Azərbaycan Respublikası inkişaf yolunda əmin addımlarla irəliləyir. Hazırda Azərbaycan dünya miqyasında dayanıqlı inkişafa və möhkəm ictimai-siyasi sabitliyə malik olan ölkə kimi tanınır.

Qeyd olunub ki, bu gün Azərbaycan iqtisadi, siyasi, hərbi gücünə görə artıq regionda lider mövqe tutub, müstəqilliyimizin verdiyi bəhrələr sayəsində ölkəmiz dünyada söz sahibi olan qüdrətli respublika kimi nüfuz qazanıb. Ötən il sentyabr ayının 27-dən başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin azad olunması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilib. Prezident cənab İlham Əliyevin bu gün də davam edən, ötən 17 illik Prezidentliyi dövründə həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsində Azərbaycan 30 ilə yaxın davam edən müharibədə qalib gəlib. Ərazi bütövlüyümüz, suverenliyimiz birmənalı olaraq bərpa edilib.

Daimi nümayəndəliyin rəhbəri vurğulayıb ki, ümummilli liderimiz Heydər Əliyevin qurub-yaratdığı, müstəqilliyə qovuşdurduğu Azərbaycan Respublikası indi Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edir, qarşıya qoyulan hədəflərə doğru inamla irəliləyir, ümumbəşəri dəyərlərə əsaslanaraq mütərəqqi inkişaf kursu seçməklə demokratikləşmə, insan hüquq və azadlıqlarının təminatı sahəsində ciddi nailiyyətlərə imza atır. Bunu Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi, hərbi, mədəni – bütün istiqamətlərdə dinamik inkişafından, qazandığı çoxsaylı uğurlardan da aydın görmək olar. Ulu öndərimizin müəyyənləşdirdiyi siyasi xəttin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsi nəticəsində qazanılan uğurlar, ölkəmizin inkişaf etməkdə olan ölkələr sırasında inamla irəliləməsi bir daha sübut edir ki, dahi şəxsiyyət Heydər Əliyevin dediyi kimi ***"Azərbaycanın müstəqilliyi əbədi, daimi və dönməzdir!"***

Tədbir digər çıxışlarla davam etdirilib.

**AZƏRTAC**

Estafet

# Müstəqilliyin əbədi olsun, Azərbaycan!



*Azərbaycan! Azərbaycan!*
*Ey qəhrəman övladın şanlı Vətəni!*

Azərbaycan qəhrəmanlar yurdu, igidlər məskənidir.Tarixən bu müqəddəs diyar neçə-neçə ərənlər yetişdirib, qəhrəmanlar bəxş edib dünyaya. Bu yurd Şah İsmail Xətailərin, Babəklərin, Cavanşirlərin, Koroğluların, Mübarizlərin, Poladların Vətənidir. Azərbaycan xalqı bütün dövrlərdə belə qəhrəmanlar yetişdirmişdi və daim yetişdirəcək. Bu gün bütün dünyanın bəhs etdiyi II Qarabağ savaşı bir daha Azərbaycanın igidlər diyarı, qəhrəmanlar ölkəsi olduğunu sübut etdi. Alovuyla dostunu isidib, düşmənini yandıran Odlar yurdunun övladı qəhrəman olmaya bilməz və bu qəhrəmanlıq keçmişdən gələcəyə, nəsillərdən-nəsillərə ötürülür.

*Səndən ötrü can verməyə cümlə hazırız!*
*Səndən ötrü qan tökməyə cümlə qadiriz!*
*Üçrəngli bayrağınla məsud yaşa!*

Vətən azadlıqdır, müstəqillikdir, hürriyyəti damarlarında daşımaqdır. Vətən şəhid qanında rəng alan bayrağımızdır. Vətənin azadlığı, bayrağımızın ucalarda dalğalanması üçün göz qırpmadan, geriyə dönüb baxmadan sinəmizi topa, tüfəngə sipər etməyə söz vermişik. Əcdadımızın bizə miras qoyduğu bu torpağa uzanan əlləri fəlc, dikilən gözləri kor etməyə and içmişik. Təki sən var ol Vətən!

*Minlərlə can qurban oldu!*
*Sinən hərbə meydan oldu!*
*Hüququndan keçən əsgər,*
*Hərə bir qəhrəman oldu!*

Tarixin ayrı-ayrı dönəmlərində ölkəmiz həmişə yadellilərin hücumlarına məruz qalıb. Yurdumuz zaman-zaman yadelli işğalçılar tərəfindən bağrı dəlik-deşik olmuş, güclü istila və talanlara məruz qalmışdır. Əsrlərboyu Azərbaycan adlanan Vətənim yaralanmış, sızlamış, öz övladlarından yardım və kömək istəmişdir. Mərd və mübariz Azərbaycan oğulları bu çağırışa qeyrətlə səs vermiş, yolunda saysız-hesabsız şəhid və qurbanlar vermişlər. 2020-ci ildə tarixi qəhrəmanlıq salnamələri ilə zəngin olan Azərbaycanın mərd, igid oğulları əcdadlarımızdan irsən keçən döyüş ruhunu, Vətən eşqini, qalib olmaq əzmini bir daha nümayiş etdirdilər, müasir tariximizin yeni səhifələrini yazdılar. Azərbaycan əsgərinin qanı və canı bahasına azad edilən Şuşa isə bu haqq savaşının zirvəsi oldu. Vətən üçün canından keçən igidlərimiz ünvanı əbədiyyət olan şəhidlik zirvəsinə yüksələrək daim ürəklərdə yaşayan qəhrəmanlarımıza çevrildilər.

*Sən olasan gülüstan,*
*Sənə hər an can qurban!*
*Sənə min bir məhəbbət,*
*Sinəmdə tutmuş məkan!*

Müstəqil Azərbaycanımız ildən-ilə güclənir, sürətlə inkişaf edir, gülüstana oxşayır. Təməlində ulu öndərin ideyalarının dayandığı nəhəng quruculuq işləri ilə, gündən-günə güclənən iqtisadiyyatımız, sürətlə abadlaşan və inkişaf edən şəhər və kəndlərimizlə, elmimizlə, mədəniyyətimizlə, səhiyyəmizlə yurdumuzu qoruyan ordumuzla qürur duyuruq. Bu gün artıq ölkəmizin inkişaf tarixində tamamilə yeni bir mərhələ başlayır. İşğaldan azad edilmiş ərazilərimizin yenidən həyata qaytarılması Azərbaycanı daha da gücləndirəcək. Qarabağına qovuşan Azərbaycan dünyaya günəş kimi doğacaq!

*Namusunu hifz etməyə,*
*Bayrağını yüksəltməyə,*
*Cümlə gənclər müştaqdır!*
*Şanlı Vətən! Şanlı Vətən!*
*Azərbaycan! Azərbaycan!*

Ey ana Vətən! Köksündə sənin hər bir qarışın üçün dünya ilə baş-başa gələ biləcək nəsillər böyüyür. Tarixi zəfərlə, mübarizə ilə dolu olan bu millət ac qalar, susuz qalar, amma Vətənsiz əsla qalmaz. Vətən üçün igidlər töküldü meydanlara, sipər etdilər ürəklərini tanklara, qaranlıq gecədən aydınlığa çıxardılar Qarabağı. Ana yurdum Qarabağa qovuşanda neçə-neçə mərd igidləri də qoynuna aldı. Şəhidlərin uyuduğu torpaqda bitən hər ot, hər çiçək dil açaraq birnəfəsə dedi:

– Vətən sağ olsun! Bir can deyil, min canlar fəda olsa da, təki bu Vətən sağ olsun! Bu sözlər bütün Azərbaycanın dilində nəğmə oldu, dastana çevrildi. Bu nəğməni oxuyan, bu dastanı yazan gənclər bayrağımızı zirvələrə qaldıraraq müstəqilliyimizin məğrur keşikçisinə çevrildilər. Müstəqilliyin əbədi olsun, Azərbaycanım!

**İlahə ALLAHVERDİYEVA**
***Naxçıvan Dövlət Universitetinin***
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

***Dünən istehsalat təcrübəsini uğurla başa vuran tələbələrlə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində görüş keçirilib.***

# Tələbələrlə görüş keçirilib



Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat naziri Tapdıq Əliyev açaraq qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası ilə bağlı tədris müddəti ərzində təhsil alan tələbələrin təcrübə keçmələri üçün zəruri işlər həyata keçirilib. Nazir vurğulayıb ki, iqtisadiyyatın müxtəlif sahələri üzrə praktik bilik və bacarıqlara yiyələnmiş kadrlara artan tələbatı ödəmək məqsədilə kadr hazırlığına diqqət artırılacaq, qarşılıqlı əməkdaşlıq imkanlarından daha səmərəli istifadə ediləcəkdir.

Bildirilib ki, İqtisadiyyat Nazirliyində istehsalat təcrübəsi keçən tələbələr bu təcrübədən qazandıqları zəngin məlumatlardan Naxçıvanın iqtisadi inkişafı naminə gələcək fəaliyyətlərində istifadə edəcəklər.

Görüşdə “Naxçıvan” Universitetinin İqtisadiyyat fakültəsinin dekanı Zakir Məmmədov istehsalat təcrübəsinin tələbələrin biliklərinin zənginləşdirilməsi, gələcəkdə karyeralarının formalaşması baxımından əhəmiyyətli olduğunu vurğulayıb. Qeyd edilib ki, 8 həftəlik istehsalat təcrübəsi ərzində “Naxçıvan” Universitetinin İqtisadiyyat ixtisası üzrə təhsil alan 31 nəfər tələbəsi nazirliyin müxtəlif struktur bölmələrində mövcud iş prosesi ilə tanış olublar. İstehsalat təcrübəsində nazirliyin əməkdaşı tərəfindən tələbələr üçün 24 mövzu üzrə praktik məşğələ keçirilib. Həmçinin tələbələr “Ləzzət Qida Sənaye”, “Cahan Sənaye Kompleksi” Məhdud Məsuliyyətli cəmiyyətlərinin istehsal prosesi və Naxçıvan Biznes Mərkəzinin sərgi salonunda muxtar respublikada istehsal olunan məhsullar və yerli sənətkarların əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Nazirlikdə istehsalat təcrübəsi keçən tələbə Ədalət Tağıyev çıxış edərək göstərilən qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirərək gələcək fəaliyyətlərində təşəbbüskar, çalışqan və məsuliyyətli olacaqlarını, dövlətimizin göstərdiyi qayğıya daha yaxşı təhsil almaqla cavab verəcəklərini qeyd edib.

***Naxçıvan Muxtar Respublikası***
***İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Şahmatçılar arasında qələbə uğrunda gərgin mübarizə gedir

***Qələbə uğrunda rəqabətin hər keçən gün artdığı qadınlar arasında şahmat üzrə Azərbaycan çempionatı fasiləsiz olaraq davam edir. Dünən artıq yeddinci turun oyunlarına yekun vuruldu. Maraqlı görüşlərdən sonra zəka sahibləri ilə həmsöhbət olduq.***

*Ülviyyə Fətəliyeva –qadınlar arasında beynəlxalq qrossmeyster:* – 7 yaşımdan şahmatla məşğul oluram.



Mən ilk dəfə 2011-ci ildə Naxçıvanda keçirilən beynəlxalq şahmat festivalında oynamışam. Daha sonrakı illərdə buraya həmin festivallarda iştirak etmək üçün gəlmişəm. Neçə illərdir ki, qadınlar arasında keçirilən şahmat üzrə Azərbaycan çempionatında oynayıram. Naxçıvanda təşkilatçılıq, iştirakçılara diqqət çox yüksək səviyyədədir, burada idmana, şahmatçılara dəyər verildiyini görmək gözəldir. Əlbəttə ki, bu qədər gözəl şəraitin müqabilində gərək pis oynamayasan. Hazırda mənim oyunum qənaətbəxşdir, 3 qalibiyyətim var. Əslində, nəticələrim daha yüksək olmalı idi. Bu da başa düşüləndir. Bir ildən çoxdur ki, şahmat taxtası qarşısında canlı oyunumuz olmayıb. Lakin sevindiricidir ki, Naxçıvanda belə bir çempionat təşkil edildi, mən də burada iştirakdan məmnunluq duyuram. Buraya qalib olmaq üçün gəlmişəm. Qalib olmaq üçün də gərək emosiyaları cilovlaya biləsən. Çünki şahmatda bu çox vaxt çətin olur. Rəqiblərim mənə tanışdır, demək olar ki, hamısı ilə oynamışam. Naxçıvanlı şahmatçılarla isə ilk dəfə oynadım. Onlar da çox yaxşı gedişlər edirlər. Bu gün sevindiricidir ki, kişi şahmatçılarla yanaşı, qadın şahmatçıların da sayı artmaqdadır və onlar dünyada ölkəmizi layiqincə təmsil edirlər. Rəqiblərimə çempion olmaq yolunda uğurlar arzu edirəm.

*Nazlı Hümbətova – Naxçıvan Şahmat Federasiyasının təmsilçisi:* – Mən dəfələrlə məktəblilərin Azərbaycan çempionatında oynamışam.



Naxçıvanda keçirilən Azərbaycan çempionatında iştirak etmək mənim üçün böyük məsuliyyətdir. Çünki ölkənin güclü şahmatçıları ilə oynayıram. Çempionatın Naxçıvanda təşkili mənim üçün ikiqat sevindiricidir. Çünki doğma diyarımdır və ailəmin mənə mənəvi dəstəyi önəmlidir. Həm də ilk dəfədir ki, bu qədər yaxşı təşkil olunmuş yarış görürəm. Ötən oyunda beynəlxalq qrossmeyster Zeynəb Məmmədyarova ilə oynadım və heç-heçə ilə bitirdim. Bütün diqqətimi, gücümü oyuna sərf etdim. Riskə getmədim, oyunu normal apardım. Bu oyun şahmat həyatımda ən böyük oyun və bütün qələbələrimə dəyəcək bir heç-heçə idi. Əlbəttə ki, bütün bunlar mənə böyük təcrübə qazandırır.

*Gövhər Beydullayeva – qadınlar arasında beynəlxalq usta:* – 2017-ci ildə Avropa çempionu, 2019-cu ildə komandamızla birgə olimpiya çempionu olmuşuq.



6 yaşımdan atam mənə şahmat oynamağı öyrədib. 2014-cü ildən Naxçıvanda təşkil edilən beynəlxalq şahmat yarışlarında iştirak edirəm. 2016-cı ildən A qrupunda oynayıram. 2019-cu ildə Naxçıvan şəhərində keçirilən şahmat yarışında qızlar arasında A qrupunda birinci yerə çıxmışam. Bu diyar mənə uğur gətirir. Ona görə də bu çempionatın Naxçıvanda təşkilinə sevindim. Buranı çox istəyirəm, bizim üçün hər cür şərait yaradılıb. Hazırda nəticələrim yaxşıdır. Görüşləri dörd qalibiyyət, iki heç-heçə, bir məğlubiyyətlə bitirmişəm. Hazırlıqlı gəlmişəm. Bu il daha yaxşı nəticə göstərmək istəyirəm. Hazırda gərgin mübarizə gedir. Kimin qalib olacağını demək çətindir, çempion sonda bəlli olacaq.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

# Çempionat davam edir




Diyarımızda ilk dəfə təşkil olunan şahmat üzrə qadınlar arasında Azərbaycan çempionatı davam edir.

7-ci turda naxçıvanlı şahmatçı Nəsrin Babayeva (1704) qrossmeyster Xəyalə Abdulla (2263) ilə üz-üzə gəlib. Görüşdə şahmatçımız məğlub olub. FİDE ustası Ləman Hacıyeva (1982) ilə beynəlxalq usta Gövhər Beydullayevanın (2263) oyununda qalib tərəf Gövhər olub.

Digər zəka sahibimiz Nazlı Hümbətova (1381) bu turda qrossmeyster Ülviyyə Fətəliyevaya (2301) məğlub olub. Qrossmeyster Zeynəb Məmmədyarovanın (2274) rəqibi bu tur FİDE ustası Ayan Allahverdiyeva (2088) olub. Gərgin mübarizədə Zeynəb qalib gəlib. Beynəlxalq usta Səbinə İbrahimova (2213) Səbinə Rzalı (1925) ilə görüşdə ağ-qara taxtanı məğlubiyyətlə tərk edib. Beynəlxalq usta Gülnar Məmmədovaya (2382) rəqib olan Mələk İsmayıl (1997) “sülh”ə imza atıb.

Turnir cədvəlinə 7 turdan sonra 6 xalla Gülnar Məmmədova və Zeynəb Məmmədyarova başçılıq edirlər.

Bu gün 8-ci turun görüşləri keçiriləcək. Bu turda azarkeşlər aşağıdakı görüşlərə şahidlik edəcəklər:

*Nazlı Hümbətova - Ayan Allahverdiyeva*
*Nəsrin Babayeva - Zeynəb Məmmədyarova*
*Gövhər Beydullayeva - Xəyalə Abdulla*
*Səbinə Rzalı - Ləman Hacıyeva*
*Ülviyyə Fətəliyeva - Mələk İsmayıl*
*Gülnar Məmmədova - Səbinə İbrahimova*

Görüşlər saat $14^{00}$-da başlayacaq.

✍ **Ceyhun MƏMMƏDOV**

### İtmişdir

İmaməliyeva Firuzə Altay qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonunun Güney Qışlaq kəndində yaşayan Alışarov Allahverən Əsgər oğlunun adına verilən JN-340B nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 433